# Ostin Texas Universiteti

**Yerləşir:** ABŞ, Texas ştatı, Ostin şəhəri
**Yaranma tarixi:** 1883-cü il
**Tipi:** Dövlət
**Akademik heyət:** 3090 nəfər
**Tələbələrin ümumi sayı:** 50950 nəfər
**Rəsmi saytı:** www.utexas.edu

Ostin Texas Universiteti *(University of Texas at Austin)* ABŞ-da Texas ştatının Ostin şəhərində yerləşir. Ölkənin ən böyük elmi-tədqiqat mərkəzlərindən biri olan universitet Böyük Britaniyanın "The Times Higher Education World University Rankings" jurnalının 2016-2017-ci tədris ili üçün reytinq cədvəlində 50-ci, ötənilki reytinq sıralamasında 46-cı, "QS World University Rankings"in 2016-2017-ci tədris ili üçün reytinqində 67-ci, ötənilki reytinq sıralamasında 77-ci yerdə qərarlaşıb. Ali məktəb Amerikanın "U.S. News & World Report" jurnalının 2016-cı il üzrə tərtib etdiyi ölkənin ən yaxşı dövlət universitetlərinin reytinqində 16-cı, qlobal dünya sıralamasında 30-cu yerdədir. Ostin Texas Universiteti 1929-cu ildən Amerika Universitetləri Assosiasiyasının üzvüdür.



## Tarixi

Texas ştatında dövlət universitetinin yaranması haqqında ilk məlumat 1827-ci ilə təsadüf edir. Həmin dövrdə Texas Meksika dövlətinin tərkibində idi və burada ilk universitet yaradılması haqqında maddə Meksika dövlətinin konstitusiyasında qeyd olunub. Konstitusiyada incəsənət və elm sahələrini əhatə edən universitetin yaradılması göstərilsə də, həmin dövrdə Meksika hökuməti bu istiqamətdə heç bir tədbir görməyib. 1836-cı ildə Texas müstəqillik əldə edib. Həmin dövrdə Texas Konqresi tərəfindən Respublika Konstitusiyası qəbul olunub. Konstitusiyanın ölkədə dövlət təhsilinin yaradılması haqqında maddəsinə əsasən Texasda iki universitet və iki kollec yaradılması haqqında məsələyə toxunulub. Nəhayət, 1839-cu ildə Texas Konqresi ali məktəb yaradılması üçün 50 liq (Latın Amerikasında qeyri-rəsmi ölçü vahidi) torpaq sahəsi, eləcə də yeni paytaxt Ostində 14 akr (160000 $m^2$) ərazi ayırıb.

1846-cı ildə Texas Amerika Birləşmiş Ştatlarının tərkibinə birləşdirilib. 1858-ci ildə Texas ştatının Qanunvericilik iclasında yeni universitetin tikintisi üçün 100000 ABŞ dolları ayrılması haqqında qanun qəbul olunub. Lakin ABŞ-da baş vermiş vətəndaş müharibəsi bu planın reallaşmasını xeyli müddət dayandırıb.

Vətəndaş müharibəsi bitdikdən sonra 1862-ci ildə qəbul edilmiş Morrill Qanununa əsasən Texas Kənd Təsərrüfatı və Mexanika Kolleci yaradılıb. Kollec 1876-cı ildə Texas Kənd Təsərrüfatı və Mexanika Universiteti adlandırılıb. Yeni Texas Konstitusiyası tələb edib ki, yaxın zamanlarda ştatda birinci dərəcəli universitet yaradılsın. Qərbi Texasda dəmiryolu tikintisi üçün ayrılmış 1 milyon akr (4000 $km^2$) ərazidə yeni universitetin tikintisi planlaşdırılıb. 1883-cü ildə universitet üçün daha 2 milyon akr ərazi ayrılıb. Bu ərazilərə sahiblik Texas Kənd Təsərrüfatı və Mexanika Universitetinin üzərinə düşüb. 1881-ci ildə yeni yaradılacaq universitetin əsas korpusu kimi Ostin, tibb bölməsinin kampusu isə Qalveston şəhərləri seçilib. 1882-ci ilin ikinci yarısında universitetin tikintisinə başlanılıb. 1883-cü ilin 15 sentyabrında Ostin Texas Universiteti ilk tələbələrini qəbul edib.

1934-cü ilədək universitetin qədim viktorian-qotik üslubuna aid binası ali məktəbin inzibati hissəsi kimi fəaliyyət göstərib. Həmin bina hündür olmasa da, geniş ərazini əhatə edib. Universitetdə yer qıtlığı yaşandığı üçün həmin ildə bir çox müəllim və tələbənin etirazına baxmayaraq, əsas binaa sökülür, onun yerində daha müasir qüllə və hündür mərtəbəli bina tikilib. 1920-ci ildə biznesmen və filantrop Corc Brakenric Ostin Texas Universitetinə Kolorado çayının sahilində 500 akr ərazi bağışlayıb. Naiblər Şurasının səsverməsinə əsasən universitetin kampusunu yeni əraziyə köçürmək niyyəti əhalinin etirazı ilə qarşılandığı üçün baş tutmayıb. Həmin vaxtdan başlayaraq bu ərazi yataqxana və digər köməkçi məqsədlərə xidmət edib. 90-cı illərdə qeyd olunan ərazinin bir hissəsi satılıb. 1923-cü ildə universitet ərazilərində neft aşkar olunduğu üçün ali məktəbin gəlirləri sürətlə çoxalmağa başlayıb. 1931-1947-ci illərdə universitetdə genişləndirmə və yenidənqurma işləri sürətlənib. 1950-1965-ci illərdə Ostin Texas Universiteti yeni 19 bina inşa etdirib, 1965-ci ildə sahibkarlara kompensasiya ödəyərək ətraf ərazilər alıb. Beləcə, universitet ətraf ərazilərdə daha 40 akr ərazi əldə edib.

1969-cu ildə universitetdə Şimali Amerikanın ən böyük yataqxanası olan Caster mərkəzi tikilir. 14 və 10 mərtəbəli iki qüllədən ibarət yataqxana kompleksi 3500-ə qədər tələbə tutumuna malikdir. 1971-ci il mayın 22-də universitetin kampusunda ABŞ-ın 36-cı prezidenti olmuş Lindon Beyns Consonun və onun xanımının, eləcə də həmin dövrdə ABŞ-ın prezidenti olan Riçard Niksonun iştirakı ilə Prezident kitabxanasının açılışı baş tutub. Kitabxana Lindon Beyns Consonun şərəfinə onun adını daşıyır. Ostin Texas Universitetinin Lindon Beyns Conson Kitabxanası və Muzeyi Milli Arxiv və Sənəd İdarəsinin tərkibindəki 12 prezident kitabxanasından biridir. 2006-cı il aprelin 30-da universitetin Blanton İncəsənət Muzeyi istifadəyə verilib. 14 min kvadratmetr əraziyə malik muzey dünyanın ən böyük incəsənət muzeylərindən biridir. 2008-ci ilin avqustunda təmir edilmiş Darella Kral stadionu (94113 yerlik) Texasın ən böyük stadionuna çevrilib.

## Universitet bu gün

Ostin Texas Universitetinin əsas kampusu 423,5 akr (171,4 hektar) ərazini əhatə edir və həmin ərazidə ali məktəbin 150 binası yerləşir. Burada əsas diqqətçəkən məqamlardan biri memar Pavel Filipp Kret tərəfindən inşa edilmiş və şəhərciyin mərkəzində yerləşən 94 metr hündürlükdə qüllə və əsas binadır. Hər axşam ağ işıqla işıqlandırılan qüllə müxtəlif tədbirlərdə, idman yarışlarında qalibiyyət zamanı narıncı, eləcə də digər rənglərdə işıqlandırılır. Qüllənin yuxarı hissəsində 56 zəngin yerləşdirildiyi karilyon (zənglərin yerləşdirildiyi musiqi aləti) Texasda ən böyük karilyon hesab edilir. Qüllənin zəngləri iş günləri səhər saat 6-da və axşam saat 21-də çalınır. Universitetin kampusundakı digər binalardan Bətl Holl, Qriqori, Anna Hiss gimnaziyalarını, Litfild Haus, Diş-Falk Fild binalarını, Darella Kral-Texas Memorial, Mark Mayers Trek futbol stadionlarını, Li və Co Cemeyl Texas Üzgüçülük Mərkəzini, Frenk Ervin Xüsusi Hadisələr Mərkəzini və s. qeyd etmək olar.

Ostin Texas Universiteti ali məktəbin kampusunda yerləşən bütün binaları birləşdirən geniş tunel sisteminə malikdir. 1930-cu illərdə Fizika zavodunun rəhbəri Karl Ekxardt tərəfindən yaradılmış tunel sonradan kampus böyüdükcə genişləndirilib. 1940-cı ildən ali məktəb elektrik enerjisi istehsal edərək özünü təchiz edir.

2010-cu ildən başlayaraq universitetin kampuslarında yerləşən obyektlər genişləndirilib. 2010-cu ildə kimya və biologiya tədqiqatları üçün nəzərdə tutulmuş Norman Hakerman binası istifadəyə verilib, Bill və Melinda Geyts Kompüter Elmləri Kompleksi, Dell Kompüter Elmləri binası, Belo Yeni Media mərkəzinin tikintisinə başlanılıb. Kampusda KUT radiostansiyası, kampus daxilində tələbələrin hərəkətini tənzimləmək məqsədilə avtobuslarla təmin olunmuş Kapital metro fəaliyyət göstərir.

Ostin Texas Universitetinin nəzdində Kommunikasiya, Təhsil, Təsviri İncəsənət, Humanitar Elmlər, Təbii Elmlər, Əczaçılıq kollecləri, Kokrell Mühəndislik, Təhsilin Davamətdirilməsi və İnnovativ təhsil, Cekson Yer elmləri, Lindon Conson İctimaiyyətlə əlaqə, MakKombs Biznes, Memarlıq, İnformasiya, Hüquq, Tibb bacısı, İctimai fəaliyyət, Bakalavr, Ali məktəbləri fəaliyyət göstərir. Onlarca bakalavr, magistr və doktorluq proqramları təklif edən kollec və məktəblər, öz növbəsində, departament, bölmə, institut və elmi-tədqiqat mərkəzlərindən ibarətdir. Kommunikasiya Kollecinə Reklam və ictimaiyyətlə əlaqə, Kommunikativ tədqiqatlar, Kommunikasiya elmləri və pozulmalar, Radio, televiziya və film departamentləri, Jurnalistika məktəbi, Annet Ştraus Vətəndaş İştirakı, Kinematoqrafiya, Telekommunikasiya İnformasiyaları və Siyasəti institutları, Cəngavər Amerika Jurnalistika, Texas İdman və Media məktəbləri, Kəkələmə İnkişaf, Dil və Koqnitiv Qocalma, Elmin İctimai Anlayışı və Səhiyyə, Nitq İstehsalatı və s. laboratoriyalar daxildir.

Təhsil (Pedaqogika) Kolleci Tədris planı və təlimatı, Pedaqoji administrasiya, Pedaqoji psixologiya, Kineziologiya və sanitariya maarifləndirməsi, Xüsusi təhsil departamentlərindən, Riyaziyyat Təhsili, Təhsil Karyera Xidməti, Tədris Texnologiyası, Medous Təhsil Riskinin Qarşısının Alınması, İkidilli Təhsilin İdarəolunması, Pirson Psixometriya Təbiqi Tədqiqatları, Latçer Stark, Texas Əlillik Tədqiqatları, Təhsil Siyasəti, Uşaq Tədrisi, Pedaqoji Administrasiya, Voqan Kross Oxuma və Yazma mərkəzlərindən, Voqan İctimai Məktəb Təşəbbüsü İnstitutundan ibarətdir.

Təsviri İncəsənət Kollecində İncəsənət və incəsənətin tarixi, Teatr və rəqs, Texas ifaçılıq incəsənəti, Mənzərəli yerlər departamentləri, Batler Musiqi Məktəbi, Latın Amerikası Vizual Tədqiqatlar, Mezoamerika, Təsviri İncəsənət, Amerika Musiqisi, Modernizm Tədqiqatları və s. mərkəzlər fəaliyyət göstərirlər.

Humanitar Elmlər Kollecinə Afrika tədqiqatları və Afrika diasporu, Hava qüvvələri elmi, Amerika tədqiqatları, Antropologiya, Samuel Uilson antropologiya, Coel Brereton Asiya tədqiqatları, Stiven Uayt klassika, Deyl Ştal iqtisadiyyat, Elizabet Kullinqford ingilis dili, Daniyela Bini fransız və italyan dilləri, Kennet Yanq coğrafiya və ətraf mühit, Piter Hess alman tədqiqatları, Qari Frimen dövlət idarəçiliyi, Alan Tulli tarix, Riçard Meyer dilçilik, Kristen Bryustad Yaxın Şərq, Boris Robinson hərbi elmlər, Den Dikson hərbi-dəniz elmləri, Kori Cul fəlsəfə, Ceyms Pennbeyker psixologiya, Marta Nyumen ilahiyyat, Cefri Uorker ritorika və yazı, Meri Noyburger slavyan və Avrasiya tədqiqatları, Kristina Uilyams sosiologiya, Cil Robbins İspaniya və Portuqaliya tədqiqatları departamentləri daxildir.

Təbii Elmlər Kollecinə Astronomiya, Biologiya elmləri, Kimya və biokimya, Kompüter elmləri, İnsan ekologiyası, Dəniz elmləri, Riyaziyyat, Fizika, Statistika və elmi hesablama departamentləri, Dəniz elmləri, Nanotexnologiya institutları, MakDonald Rəsədxanası, Brakenric Fild Laboratoriyası, Yaddaşın Öyrənilməsi, Vaqqoner mərkəzləri daxildir.

Əczaçılıq Kollecinə Tibbi kimya, Əczaçılıq, Farmakologiya və toksikologiya, Farmakoterapiya, Əczaçılıq Administrasiyası, Əczaçılıq təcrübəsi departamentləri, Narkomaniya, İnfeksion Xəstəliklər Tədqiqatları, Molekulyar və Hüceyrə Toksikologiyası, Farmakoiqtisadi Tədqiqatlar mərkəzləri aiddir.

Ostin Texas Universitetinin nəzdində zəngin kolleksiya və materiala malik 7 muzey və 17 kitabxana fəaliyyət göstərir. Bunlar Lindon Beyns Conson Prezident Kitabxanası və Muzeyi, Memarlıq və planlaşdırma, Aleksandr memarlıq arxivi, Benson Latın Amerika, Mallet kimya, Klassik, Kolleksiya depoziti, MakKinni mühəndislik, Təsviri incəsənət, Uolter geologiya, Pikl tədqiqat kampusu, Dəniz elmləri, Əsas Perri-Kastaneda, Fizika, riyaziyyat, astronomiya kitabxanalarıdır. Lindon Beyns Conson Prezident Kitabxanası və Muzeyi nəhəng sənəd və digər materiallardan ibarət elmi-tədqiqat ocağıdır.

Harri Rensom Mərkəzi dünyanın ən zəngin arxivlərindən biridir. Netti Li Benson Latın Amerikası Kolleksiyası ABŞ-da bu sahə üzrə ən böyük kitabxanadır. Blanton İncəsənət Muzeyi ölkənin ən nəhəng bədii muzeylərindəndir və burada məşhur kolleksiyalar cəmlənib. Dolf Brisko Amerika Tarixi Mərkəzi Cənub-Qərbi Amerika və Texasın tarixinə aid zəngin kolleksiyaya malik böyük elmi-tədqiqat müəssisəsidir. Texas Memorial Muzeyi fəal təbii elmi mərkəz olaraq çoxlu sayda ziyarətçilər qəbul edir.

Ostin Texas Universitetinin kampusunda 14 yataqxana mövcuddur. Bu yataqxanalarda 8000-ə qədər tələbə yerləşdirmək mümkündür. Yataqxanaların arasında ən böyüyü 1969-cu ildə istifadəyə verilən və 3500-dən çox tələbə tutumuna malik Cester Mərkəzidir. Şəhərciyi xatırladan bu yataqxana kompleksi universitetin tarixində həyata keçirilən ən iri tikinti layihələrindən biridir. Eyni zamanda ali məktəbdə Endryus, Litfild, Kinsolvinq, Blanton, Karozers, Kriksayd, Almetris Duren, Mur-Hill kimi böyük yataqxanalar fəaliyyət göstərir. Tələbələr özəl yataqxanalarda, kirayə mənzillərdə də qala bilərlər.

Universitetdə 1300-ə qədər tələbə təşkilatı mövcuddur. Burada fəaliyyət göstərən ən qədim təşkilatın tarixi 1902-ci ilə təsadüf edir. Universitetdə "Study Breaks Magazine", "The Dailiy Texas", "Texas Travesty" tələbə nəşrləri fəaliyyət göstərir. Ostin Texas Universitetinin talismanı Texas lonqhornu (iribuynuzlu heyvan), Bevo öküzü hesab edilir. Ali məktəbin rəngləri isə narıncı və ağdır. İdman tədbirlərində tələbələr barmaqlarını buynuz şəklində qaldıraraq "Texas mübarizəsi" himnini oxuyurlar. Universitet geniş çeşidli idman proqramları təklif edir və bu sahə üzrə əhəmiyyətli nailiyyətlərə malikdir.

Ostin Texas Universitetinin Əxlaq Kodeksi aşağıdakılardan ibarətdir: təhsil, kəşf, azadlıq, liderlik, cavabdehlik, insanlara yeni imkanların yaradılması. Universitetin hər bir üzvü bu dəyərlərə bütövlük, sədaqət, inam, ədalət və hörmət bəsləməli, insanlara layiqli xidmət göstərməlidir. Ostin Texas Universitetinin əsas missiyası ali, diplomdansonrakı təhsil, elmi tədqiqatlar və dövlət qulluğu kimi qarşılıqlı əlaqəyə malik sahələr üzrə mükəmməl nəticələr əldə etməkdir. Universitet Texas və ondan kənarda baş verən pozitiv dəyişikliklərdə əsas katalizator rolu oynamağa can atır, mədəniyyətlərin qorunması, inkişaf etdirilməsi və dünya iqtisadiyyatının gücləndirilməsi üzrə yeni proqramlar hazırlayır.



*Biologiya laboratoriyasında*



*Universitetin kitabxanasında*



*2016-cı ilin məzunları*

## Büdcəsi və təhsil haqqı

Ötən tədris ilində universitetin endaument fondunun həcmi 3 milyard 270 milyon dollara çatıb. Universitetin 2016-2017-ci tədris ilində ümumi büdcəsi 2 milyard 875 milyon dollar müəyyən olunub. Ali məktəbin ötən tədris ilində illik gəlirləri 7.846.726, xərcləri 8.097.098 ABŞ dolları olub. Universitetin prezidenti Qreqor Fenves, rektoru Mauriye Makinnisdir. Ali məktəbin akademik heyəti 3090, inzibati işçilərinin sayı 21000 nəfərdir. 2015-2016-cı tədris ilində universitetdə təhsil alan tələbələrin ümumi sayı 50950 nəfər olub. Onlardan 39619 nəfər bakalavr, 11331 nəfər isə magistrantlardır. Tələbələrin 49,9 faizi oğlanlar, 51,1 faizini qızlar təşkil edir. Universitetdə dünyanın 126 ölkəsindən tələbələr təhsil alır. Onlar ümumi tələbə sayının 9,7 faizini təşkil edir. Əcnəbi tələbələr əsasən Koreya Respublikası, Çin, Hindistan, Meksika və Tayvanın payına düşür. Universitet Texas ştatının ən böyük elmi tədqiqat mərkəzidir. Ötən tədris ilində elmi tədqiqatlardan əldə olunan gəlirlərin həcmi 600 milyon ABŞ dollarına çatıb. 2015-2016-cı tədris ilində birillik təhsil haqları bakalavrlar üçün 33000, magistrlər üçün 21000 ABŞ dolları təşkil edib. Bundan başqa, tələbələrin kirayə (374-592), qidalanma (180-334), nəqliyyat (26-100), rabitə və elektrik (76-88), geyim (17-61), istirahət və idman (20 -78) kimi orta hesabla 695-1256 ABŞ dolları həcmində əlavə xərcləri var. Universitetdə müəllim-tələbə nisbəti 1:18-dir. Ali məktəbin auditoriyalarının 31 faizdən çoxu hər birində 20 tələbə olmaqla təşkil olunub. Məzunların məmnunluq göstəricisi 95 faiz təşkil edir. Universitetə daxil olmaq istəyən abituriyentlər hər il dekabrın 1-ə kimi öz sənədlərini ali məktəbə göndərməlidirlər. İlkin qeydiyyat rüsumu 75 dollardır. Sənəd verənlərdən yalnız 39 faizi tələbə adını qazanır. Tələbələrin 42 faizi öz ehtiyaclarına müvafiq olaraq maliyyə yardımları ala bilər. Maliyyə yardımının orta həcmi 9088 ABŞ dolları təşkil edir.

## Məşhur məzunları

Universitetin məzunları arasında 63 nəfər ABŞ Milli Elmlər Akademiyasının üzvü, 9 Nobel mükafatı laureatı, onlarca Pulitser mükafatı, Milli Elmlər, Milli Texnologiyalar, Tyurinq və s. medalların qalibləri var. Məzunlardan 30 nəfər ABŞ Senatında və Nümayəndələr Palatasında xidmət göstərib. Məşhur məzunlardan Lora Buşun (ABŞ-ın sabiq prezidenti Corc Buşun xanımı), Cenna Buşun (ABŞ-ın sabiq prezidenti Corc Buşun qızı), Ceyms Beykerin (ABŞ-ın sabiq dövlət katibi), Uilyam Bennetanın (ABŞ-ın sabiq təhsil naziri), Berd Consonun (ABŞ-ın sabiq prezidenti Lindon Consonun xanımı), Linda Bird Conson Robbun (ABŞ-ın sabiq prezidenti Lindon Consonun böyük qızı), Ramsey Klarkın (ABŞ-ın sabiq baş prokuroru), Tom Klarkın (ABŞ-ın sabiq baş prokuroru və ABŞ Ali Məhkəməsinin sabiq hakimi), Con Konollinin (ABŞ-ın sabiq maliyyə naziri), Skott Makklellanın (Ağ evin sabiq mətbuat katibi), Fernando Belaunde Terrinin (Perunun sabiq prezidenti), Fransisko Santes Kalderonun (Kolumbiyanın 9-cu vitse-prezidenti), Mariya de Lurdesin (Meksikanın Avropa Şurasındakı sabiq səfiri), Salam Fəyyadın (Fələstin Milli Hakimiyyətinin sabiq baş naziri), Mustafa Çamranın (İranın sabiq müdafiə naziri), Şeyx Abdulla Tarikinin (OPEK-in yaradıcılarından biri) adlarını çəkmək olar. Hazırda universitetin bütün dünya üzrə 482 mindən artıq məzunu var. Onların bir çoxu dünyanın nüfuzlu maliyyə, biznes, texnologiya və digər şirkətlərində uğurla çalışır. Son on ildə universitetin məzunları tərəfindən 66 şirkət yaradılıb.

**Oruc MUSTAFAYEV,**
*"Azərbaycan müəllimi"*